**Braziliyada Avropa İttifaqı və Britaniya ilə COP çərçivəsində yaşıl tərəfdaşlıq müzakirə edilib**

Braziliyanın G20-yə sədrliyi çərçivəsində keçirilən enerji tədbirlərində iştirak məqsədilə Foz do İquaçu şəhərində səfərdə olan energetika naziri Pərviz Şahbazov bir sıra görüşlər keçirib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simsonla görüşdə təbii qaz təchizatı, yaşıl enerji tərəfdaşlığı və COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. COP29 Sədrliyinin irəli sürdüyü 14 təşəbbüsün 3-nün enerji sahəsini əhatə etdiyi qeyd olunub. COP çərçivəsində Aİ ilə birgə planlaşdırılan tədbirlər, o cümlədən Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Gürcüstan, Rumıniya, Macarıstan, Bolqarıstanın, eləcə də şirkətlər və maliyyə institutlarının iştirakı ilə "Xəzər-Qara dəniz-Avropa" Yaşıl Enerji Dəhlizi üzrə keçiriləcək yüksək səviyyəli tədbir zamanı layihənin texniki-iqtisadi əsaslandırmasının ilkin hesabatının təqdim olunması ilə bağlı fikir mübadiləsi edilib. Bu dəhliz üzrə işlərin cari vəziyyəti, layihənin Mərkəzi Asiya ölkələrinin qoşulmaqla genişləndirilməsi istiqamətində atılan addımlar nəzərdən keçirilib. Gələn il layihəyə PMI (Ortaq Maraqlar Layihəsi) statusu üçün müraciət ediləcəyi bildirilib. Həmçinin Naxçıvan üzərindən Türkiyə vasitəsilə Avropaya yaşıl enerji infrastrukturunun qurulmasına da toxunularaq bu layihələrin əhəmiyyəti Avropada elektrik enerjisinə gözlənilən tələbat artımı, enerji təhlükəsizliyi və enerji keçidi kontekstində dəyərləndirilib.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Parlamentinin "Enerji Təhlükəsizliyi və Xalis Sıfır" departamentində dövlət katibinin müavini Keri Makkarti ilə görüşdə isə ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli strateji tərəfdaşlığın yaşıl enerji, dekarbonizasiya istiqamətləri ilə şaxələnən inkişafından məmnunluq ifadə edilib. Bu xüsusda, təmiz enerjiyə keçid sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun həyata keçirildiyi vurğulanıb. Azərbaycanın neft-qaz sənayesinin karbonsuzlaşdırılmasında bp ilə icra olunan "Şəfəq" layihəsinin əhəmiyyətindən bəhs olunub.

Görüşdə COP29-un yaşıl enerji zonası və dəhlizlər, elektrik şəbəkələrinin gücləndirilməsi və enerji saxlama imkanlarının artırılması, hidrogenin inkişafı üzrə enerji təşəbbüslərindən də danışılıb. Böyük Britaniya enerjiyə keçid məqsədinə çatmağa imkan yaradan bu təşəbbüslərə qoşulmağa dəvət edilib. "Enerji günü"ndə keçirilən tədbirlərdə iştirakla yanaşı, COP-un iqlim və yaşıl enerji keçidi ilə bağlı hədəflərini irəli aparmaq üçün zəruri olan maliyyələşmə məsələsi, həmçinin Böyük Britaniya ilə potensial təşəbbüslər üzrə əməkdaşlıq imkanları da müzakirə edilib.

**10.19**

Energetika naziri Pərviz Şahbazov Braziliyada Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simsonla təbii qaz təchizatı və yaşıl enerjinin tədarükü layihələri, həmçinin COP29 üzrə əməkdaşlığı dəyərləndirib.

AZƏRTAC xəbər verir ki, bu barədə energetika naziri Pərviz Şahbazov məlumat verib.

"COP29-un enerji təşəbbüsləri, "Enerji Günü"nə planlaşdırılan tədbirlər, Aİ-nin iştirakı ilə "Xəzər-Qara dəniz-Avropa" Yaşıl Enerji Dəhlizinə həsr olunmuş yüksək səviyyəli iclasda layihənin texniki-iqtisadi əsaslandırmasının ilkin təqdimatı və gələn il PMI statusuna müraciətlə bağlı fikir mübadiləsi apardıq", - deyə o qeyd edib.

**AZƏRTAC**
**2024, 3 oktyabr**